## FİLOLOGİYA

https://doi.org/10.59849/3006-1342.2025.3.168
UOT 80

*Sənubər Sabir qızı Abdinova*
*Elmi işçi,*
*Elmira Məhərrəm qızı Şirinova*
*Elmi işçi*
*AMEA Gəncə Bölməsi*
*Humanitar Tədqiqatlar İnstitutu Ədəbiyyat şöbəsi*
*E-mail: abdinova.senuber70@mail.ru*

# YAS MƏRASİMLƏRİNDƏ AĞILARIN ROLU

*Ağılar xalqımızın yas mərasimlərində olan ən təsirli və kövrək ənənələrdən biridir. Ağı söyləmək insan içindəki dərdi, kədəri dilə gətirmək, dünyasını dəyişən insanın xatirəsini yad etmək üçün yaranmışdır. Hər bir ağı bir həyat hekayəsidir – bir ananın, bacının, övladın, həyat yoldaşının ürək sözüdür. Ağıların əsas məqsədi insanı dərddən azad etmək, onu sakitləşdirmək və ruhən yüngülləşdirməkdir. Xalq arasında "ağlayan ürək yüngülləşər" deyilir. Bu söz ağıların mahiyyətini çox gözəl ifadə edir. Ağılarda həm də dünyanın faniliyi, insan ömrünün qısa olmasıkimi fikirlər ifadə olunur. Bəzən ağıda təkcə bir insan itkisi deyil, bir dövrün, bir hadisənin, bir kəndin dərdi ifadə olunur. İllər keçsə də ağılar xalqın tarixini, keçmişini, acısını unutmamağa kömək edir. Məqalədə ağıların quruluş və üslubu haqqında məlumat verilmişdir. Bölgələr üzrə fərqli üslublar göstərilmişdir.*

*Açar sözlər:* yas adətləri, dəfn mərasimi, kollektiv kədər, mədəni yaddaş, ayin, adət-ənənə

Dəfn adəti bəşəriyyət tarixində mövcud olan ən qədim adətlərdən biridir. İnsan dünyaya gəldiyi ilk gündən doğum və ölüm hadisəsinin mahiyyətini anlamış və ona öz növbəsində xüsusi önəm vermişdir. İnsanın son mənzilə yola salınması o qədər böyük önəm kəsb etmişdir ki, ona xüsusi mərasimlər, rituallar həsr olunmuşdur.

Tarixə nəzər salsaq görərik ki, Azərbaycanda dəfn adətləri şox qədim tarixə malikdir. Azərbaycan ərazisində dəfn olunmuş insan qalıqlarına Qobustanda 10-12 min il bundan əvvəl – Mezolit (orta daş) dövrünə aid yaşayış yerində təsadüf olunmuşdur.

Yas və dəfn mərasimi müsəlman mərasimləri arasında ən qədim və islamdan əvvəlki bütpərəstlik ənənələrinin bir çoxunu özündə saxlayan mərasim hesab edilir. Bu ayinlərdən biri də yas mərasimində oxunan ağılardır.

İnsan yarandığın gündən ilk sözü layla, dünyadan köçərkən son sözü ağı vasitəsilə eşidir.

Ağılar – yas mərasim ilə bağlı oxunan arxaik nəğmələrdir. Türk folklorunda ağı geniş yayılaraq yuğ, ağı, ağıt, sağu, yedi, edi adları ilə tanınmışdır. Qədim türk tayfa birliklərində ölüm yalnız bir şəxsin yoxluğu deyil, bütün tayfanın bütövlüyünə təsir edən ciddi bir hadisə kimi qəbul olunurdu. Bu səbəbdən ağılar həm fərdi, həm də ictimai kədərin ifadəsinə çevrilmişdir.

Folklorşünas alim R.Nəcəfli qeyd edir ki, "Ağılar ilkin mərhələdə ayin xarakterli şeir forması kimi yaranmış və öz funksiyasını müasir dövrə qədər qoruyub saxlamışdır" [9, s. 12]. İnsanlar yaxınlarını itirəndə dərdlərini sözlə ifadə ediblər. İlk ağılar həm də dini inanclara bağlı olub, ölən insanın ruhunu yad etmək üçün söylənib.

Qədim Azərbaycanda da "yuğ" adlanan ayin olmuşdur və sonralar bu ayinin bir çox tərkib hissəsi yas mərasiminə yönəlmişdir. "Yuğlamaq – ağlamaq" sözündəndir.

Ağılar tarix boyu həm qəhrəmanlar, həm də bütün ölülər üçün oxunub. Bu barədə akademik N.Cəfərov yazır: "Qədim Türk poeziyasının həm kəmiyyət, həm keyfiyyət – sənətkarlıq baxımından əhəmiyyətli bir hissəsi qəhrəmanların ölümünə həsr olunmuş ağılardır. Bunlardan türk hökmdarı Alp ər Tonqaya, Hun xaqanı Atillaya deyilmiş ağılar qədim türklərin milli dövlətçilik hissəsinin nə qədər güclü olduğunu bir daha təsdiq edir. Həmin şeirlərdə hökmdar – qəhrəmanın tarixi qüdrətindən danışılar onun ölümü ilə dünyanın yiyəsiz-sahibsiz qalması, ictimai nizamin pozulması göstərilir. Alpər Tonqa ağısı böyük Turan hökmdarlarının şərəfinə yaradılmış dastanın davamı olub, M.Kaşğari "Divan"ının müxtəlif səhifələrinə bənd-bənd səpələnmişdir. Böyük Hun-Türk hökmdarı Atillanın ölümünə həsr olunmuş ağı barədə məlumat isə VI əsr tarixçisi Yordanes verir" [2, s. 57].

Ağılarla bağlı ilk yazılı qeydlərə orta əsrlərə aid mənbələrdə rast gəlinir. Məs. XIII əsrdə yaşamış Qətran Təbrizinin divanında rast gəlinən mərsiyələr klassik ağı funksiyasını daşıyır. Bu ayinlərin tarixi çox qədimdir. Kərbəla hadisəsi ilə bağlı yaranan mərsiyyəvi ağılar xalq arasında çox yayılıb. Oğuzların qədim abidələrindən olan "Dədə Qorqud" dastanında qəhrəmanın ölümünə söylənən ağılar bu janrın qədimliyinə sübutdur. Dastanda Qazan xan, Qantural və ya Basat kimi qəhrəmanların ölümünə yas tutulan və onların şərəfinə söylənən qəmli kəlmələr janrın epik forma ilə də bağlılığını göstərir [6, s. 134]. Həmçinin "Salur Qazanın evinin yağmalandığı boy"da bu ayin belə təsvir edilir: "Burla Xatun boynilə qulağın aldı, düşdü. Güz alması kibi al yanağını tutdu, yirtdı. Qarğu kibi qara saçını yoldu: "Oğul, Oğul!" deyibən zarılıq qıldı, ağladı". Burada göründüyü kimi oğlunun öldürüləcəyini eşidən ana üzünü cıraraq, saçlarını yolur və ağı deyir.

Oğul, oğul, ay oğul!
Qızıl tağlı uca evimin dirəyi oğul!
Qaza bənzər qız-gəlinimin çiçəyi oğul!
Oğul, oğul, ay oğul!
Doqquz ay dar qarnımda gəzdirdiyim oğul!
On ay deyəndə dünyaya gətirdiyim oğul!
Bələyini beşikdə bələdiyim oğul! [7, s. 118].

Görkəmli ədəbiyyatşünas Ə.Haqverdiyev öz araşdirmalarında bildirirdi ki, ölülərə ağı demək və bunun ətrafında xüsusi mərasim keçirmək çox qədimdən Azərbaycanda mövcud olmuşdur. O yazırdı ki, insan vəfat edəndə camaat bir yerə yığışar, bu yığıncaq "yuğ" adlanardı. "Yuğ" mərasimində əsas məqsəd mərhumun şərəfinə mərasim qurmaq, onun haqqında xatirələri yada salmaq və yasın paylaşılması olmuşdur. Mərasimdə əvvəlcə igidliyi ilə tanınmış mərhumun davranışları və həyatından nümunələr danışılır, sonra isə kütləvi şəkildə ağlama mərhələsi başlayırdı. Bu ənənə qədim türklərin musiqi, söz və ağılarla müşayiət olunan yas mərasimləri ilə bağlıdır. Bu mərasimlər zaman keçdikcə Azərbaycan ərazisində daha çox formalaşmış və yas adətlərinin mühüm hissəsinə çevrilmişdir.

İllər ötdükcə "yuğ" mərasimlərini icra edən xüsusi adamların yerini daha cox "ağı" deyən qadınlar tutmuşdur. Tarixi qaynaqlarda da qeyd olunur ki, ağılar əsasən qadınlar tərəfindən söylənilir. Ağı deyən qadınlar – "ağlayanlar" və ya "yasçı qadınlar" bəzi hallarda professional səviyyədə bu işlə məşğul olmuşlar. Onlar hadisəyə uyğun improvizə qabiliyyəti ilə seçilirdilər [3, s. 89]. Ənənəvi olaraq ağılar qadınlar tərəfindən mərhumun anası, bacısı, həyat yoldaşı və yaxın qohumu tərəfindən deyilmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, ağılar tək qəhrəmanlar üçün deyil, bütün ölülər, bütöv icma üçün oxunmuşdur.

Ağılar öz quruluş və üslubuna görə fərqlənir. Onlar bayatı, sərbəst şeir və bəzən musiqili ritmik oxunan poetik parçalar şəklində olur. Bayatı şəklində ağılara daha tez-tez rast gəlinir və onlar dörd misradan ibarət olaraq sadə və təsirli nümunələrdir:

Ay doğdu, bizə düşdü,
Gün doğdu, düzə düşdü,
Sən tək igid cavanlar
Tezliknən yerə düşdü.

Sərbəst ağılar ölçüsüz və sərbəst deyilən poetik nümunələrdir. Böyük maarifçi, tanınmış pedəqoq M.A.Abbaszadənin 1914-cü ildə çap olunmuş "Arvad ağısı" adlı kitabında sərbəst ağılara daha çox rast gəlinir:

Açılmayan tüfəngin, sıyrılmayan xançalın öz canına qurban! Ay kimi doğdun, gün kimi batdın, minəndə at bağrı yardın. Altının bədöy atına, çiyninin süzən tüfənginə, ağzının kəsərli sözünə anan qurban ey! [1, s. 7]. Onun topladığı folklor nümunələri sırasında elə ağılar var ki, həqiqətən tək ölən adam üçün deyil, bütöv icma üçün oxunmuş və mərhumun xatirəsini yaşadaraq ev sahibinə ehtiram əks etdirmişdir:

Şalım qara boyandı,
Ucu yerə dayandı.
Mənim ah-naləmdən
Göydə mələk oyandı. (1, 8)

Bu ağının iki misrası unudulmaqda olan bir adətdən xəbər verir. Qədim dövrdə Azərbaycanda yas düşən evin həyətində qara boyaq dolu bir qazan, qaynadılarmış. Yasa gələn yaxın adamlar, xüsusən qadınlar öz baş örtüklərini bu qazana ataraq qara rəngə boyayarmış. Bu adət həm də yas sahibinə, eləcə də mərhumun ruhuna olan ehtiramı bildirərmiş [5, s. 131].

Musiqili ağılar daha çox ritmik oxunan parçalardır. Bu ağılar əsasən ağıçı qadınlar tərəfindən daha emosional səslənir.

Azərbaycan mərasim folklorunda ağıların özünəməxsus yeri vardır. Əsasən Qərb bölgəsində Gəncə, Qazax, Tovuz, Gədəbəy və.s.söylənən ağılar öz zənginliyi və janr üslubu ilə fərqlənir. Burada söylənən ağılar çox emosional, improvizə xarakterli və əsasən hadisəyə uyğun olaraq həmin anda söylənilir. Bu bölgədə söylənən ağılar daha çox sadə, bayatı çəklində olur və öz təbii ifadəsi ilə seçilir.

Dağlar başı qar imiş,
Dibi bir anbar imiş.
Əvvəli şirin dünyanın
Axırı zəhirmar imiş!

Bu dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burda bir igid ölmüş
Göy kişnər, bulud ağlar [4, s. 354]

Gəncə-Qazax bölgəsi ilə müqayisədə Qarabağ ağıları musiqi ilə daha sıx bağlıdır və çox vaxt muğam üslubunda, ahənglə söylənilir. Obrazlılıq və qafiyə zənginliyi ilə dıqqət çəkir. Bölgələrdəki bu müxtəliflik Azərbaycan yas mədəniyyətinin zənginliyini göstərir.

Qarabağdan gəlirəm,
Yüküm yoxdu, zəliləm.
Bir döşək at, bir yorğan
Əcəl gəlib, ölürəm [8, s. 58]

Azərbaycanın hər bölgəsində insanlar yaxınlarını itirəndə ağı deyirlər. Amma bu ağılar bəzi xüsusiyyətlərinə görə hər yerdə eyni səslənmir. Ümumilikdə ağılar hamısı birlikdə xalqın dərdini, ürək səsini əks etdirir.

Müasir dövrdə yas mərasimlərində bir çox ənənələr zəifləsə də, ağılar həm kənd, həm şəhər mühitində bu mərasimlərin vacib hissəsi olaraq qalır. Onlar insanların kədərini ifadə edir, mərhumun xatirəsini yaşadır və insanları bir-birinə yaxınlaşdırır. Hər ağıda təkcə şəxsi dərd yox, həm də xalqın ümumi faciəsi və yaddaşı əks olunur. Buna görə də ağılar həm insanlara təsəlli, həm də mənəvi irs rolunu daşıyır və bu gün də öz aktuallığını qorumaqdadır.

## *Nəticə*

Ağılar xalqımızın yas mərasimlərində həyata keçirilən ən vacib və mənalı ayinlərdən biridir. İnsanlar yaxınlarını itirəndə yaşadıqları kədəri və ağrını sözlə ifadə edirlər. Ağı söyləmək həm mərhumun xatirəsini yad etmək, həm də qalan insanlara təsəlli vermək üçündür. Hər bölgənin özünəməxsus ağı söyləmək tərzi var, amma hamısında duyğu eyni olur – kədər, sevgi və ehtiram. Bu gün insanlar əvvəliki kimi tez-tez ağı söyləməsələr də bu ənənə xalqın səsi, kədərin və sevginin dili, keçmişlə bu gün arasında bir körpüdür. Bu nəğmələr bizim tariximizin, mədəniyyətimizin və adət-ənənəmizin bir parçasıdır.

## ƏDƏBİYYAT

1. Abbaszadə M.A. Arvad ağısı. Bakı, Səda, 2004.
2. Cəfərov N. Qədim turk ədəbiyyatı. Bakı, Az ATAM, 2024.
3. Əliyev T. Azərbaycan qadını folklorda. Bakı, 2005.
4. Gəncə folkloru antologiyası III kitab. Gəncə, Elm, 2016.
5. Xürrəmqızı A. Azərbaycan mərasim folkloru. Bakı, Səda, 2002.
6. Kitabi-Dədə Qorqud. Bakı, Yazıçı, 1988.
7. Kitabi-Dədə Qorqud. Əsl və sadələşdirilmiş mətnlər. Bakı, Öndər Nəşriyyat, 2004.
8. Qarabağ: Folklor da bir tarixdir 9 cild, Bakı, Elm və Təhsil, 2014.
9. Nəcəfli R. Azərbaycan ağıları. Bakı, Elm, 1999.

УДК 80

*Санубар Сабир кызы Абдинова,*
*Ельмира Мухаррам кызы Ширинова*
*Гянджинское Отделение НАНА*

## РОЛЬ ПРИЧИТАНИЙ (АГИ) В ТРАУРНЫХ ОБРЯДАХ
## *РЕЗЮМЕ*

*Ключевые слова:* траурные обычаи, похоронная церемония, коллективная скорбъ, култърная памятъ, обряд, обычаи

«Агы» - одни из самых грустных и влиятельных традиционных форм, исполняющихся в ритуалах траурных мероприятий. Можно отметить, что высказывание агы способствует исцелению человеческого духа. Также они служат

увековечению памяти умерших близких. Каждое агы - это отдельная история человека: в одних случаях - успокоение матери, сестры, детей или же жены о умершем близком. Главное в агы - это помощь человеку обрести покой, исцеление духа от согрешений и др. Среди народа существует поговорка: «плачущее сердце успокаивается». Данное выражение отлично отображает суть агы. Также в агы можно отследить мысли о непостоянности мира, не вечности человеческой жизни. Иногда в агы бывают не только смерти людей, но также увековечиваются горе одного периода, а также всего села. Несмотря на многие годы, агы также способствуют сохранению истории, прошлого горя целого народа.

В статье дана информация о структуре и стилях агы. Приведены различия регионального масштаба.

UDC 80

*Sanubar Sabir Abdinova*
*Muharram Elmira Shirinova*
*Ganja Branch of ANAS*

THE ROLE OF LAMENTS IN TRAGEDY CUSTOMS
*SUMMARY*

*Key words:* mourning customs, funeral ceremony, collective grief, cultural memeory, ritual, customary tradition

“Aghi” (Sad songs) on of the sensitive and sadly traditions in the worth evnts aghi has been formed based on the sadness. Bad impression about memories for human. Every aghi in the libe novelty as the formation of one mother, sister, wife witte thewr heart words. Also, the basic principles is the helpness to solwe humanitity issue problem’s solving methodes, too recognize the whisper. This word means the main aim of savi sonds. Also, in aglis we can sense the wnless of the world life, hunan issues events too. Sometimes it has been seen not only the dead of a human, but also the event, problem of the whole village region. After many years these types of sangs helped people to forget their worth memories for a long historical time.

In this article we can see the information about the structure and styles of aghi. Differences based on regional issues were studied here.

***Daxil oldu: 17.11.2025-ci il***